“Statistika xəbərləri” elmi-praktik
jurnalının redaksiyasına

Vahid Novruzovun “Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi və inkişaf” adlı məqaləsinin “Statistika xəbərləri” elmi-praktik jurnalında nəşr olunması üçün

RƏY

Məqalədə “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndən irəli gələn vəzifələr geniş təhlil edilmişdir. Azərbaycanın Yol Xəritəsində göstərilən mexanizmlərin işlənib hazırlanması və tətbiqi yeni qlobal reallıqda Azərbaycan iqtisadiyyatının düzgün istiqamətləndirilməsi və inkişafının sürətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təsdiq olunmuş Yol Xəritəsinin daha müvəffəqiyyətlə həyata keçirilməsi üçün bir sıra yol xəritələrinin, o cümlədən ölkəmizdə və onun regionlarında iqtisadi səviyyə və sahələr arasında istehsal kooperasiyalarının gücləndirilməsini təmin etməyə, klasterləşmənin geniş yayılmasına imkan yaradacaq yeni yol xəritələrinin hazırlanmasına ehtiyac olduğu vurğulanır. Azərbaycanda biznes mühitinin institusional əsaslarının gücləndirilməsi üçün Yol Xəritəsində azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə bərabər səmərəlilik, hesabatlılıq və şəffaflığın artırılması əsas istiqamət kimi qeyd edilmişdir. Həmçinin Yol Xəritəsində nəzərdə tutulmuş şəffaflıq və hesabatlılıq probleminin həlli istiqamətində qarşıya çıxan məsələlərə münasibət bildirilmiş və onların həlli yolları haqqında təkliflər verilmişdir.

Məqalənin mövzusu aktual olduğu üçün və təklif edilən mövzunu əhatə etdiyinə görə onun “Statistika xəbərləri” elmi-praktik jurnalında dərc olunması məqsədəuyğundur.

Dövlət Statistika Komitəsi
sədrinin müavini

Yusif Yusifov